UOT-811.512.162
Səhifə: 176-181
https://doi.org/10.59849/2663-8967.2026.2.176

Jalə İlyasova
Azərbaycan Dillər Universiteti
jaleilyasova001@gmail.com

ŞƏKİ TOPONİMLƏRİNİN SEMİOTİK VƏ LİNQVOKULTUROLOJİ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Toponimik vahidlər mənsub olduğu bölgənin coğrafi şəraitini, əhalinin dilini və tarixi keçmişini əks etdirən leksik vahidlərdir.

Sosial inkişaf və dəyişmənin müəyyən dövr və mərhələsində meydana çıxan Şəki etnotoponimlərinin yaranması mürəkkəb bir tarixi prosesi özündə birləşdirir. Tarixi şəraitlə əlaqədar inkişaf etdiyinə görə müxtəlif etnosların, millətlərin bir yerdən digər yerə miqrasiyası, qovuşması və assimilyasiyası müəyyən dərəcədə Şəki toponimiyasında da əks olunur.

Bu məqalədə Şəki toponimləri (Padar, Cəlayir, Muğal, Bucaq, Qaraqoyunlu, Daşlı bayır, Şirinbulaq, Çayqıraq və s.) milli-mədəni səviyyədə dil səviyyələri ilə müqayisə olunur. Mövcud toponimlər semiotika, eləcə də dil və mədəniyyət kontekstində araşdırılır. Sözügedən bölgənin bu və ya digər toponimləri siyasi və ontogenetik tariximizi, etnoqrafiyamızı, dil tarixi, bədii-poetik düşüncə, etik-estetik görüşlərimizi yaşadır və əks etdirir.

A***çar sözlər:*** *Şəki bölgəsi, etnotoponimlər, semiotik amil, simvol, linqvokulturoloji amillər*

Giriş: Məlumdur ki, semiotika işarələrdən bəhs edən dilçilik elminin bir sahəsidir. İşarə sistemləri içərisində toponimik vahidlər də mühüm yerlərdən birini tutur. Toponimlərin semantikası, praqmatika və sintaqmatikası buraya daxildir. Bu işarələr vasitəsilə hər hansı dil vahidinin semiotik xüsusiyyətləri də müəyyənləşdirilir və toponimlərin anlam konsepsiyası dərk edilir. Onu da qeyd edək ki, Şəki toponimlərinin etnolinqvistik xüsusiyyətlərindən danışırıqsa, o zaman həmin vahidlərin semiotik və linqvokulturoloji amilləri də nəzərdən keçirilməlidir. Semiotik amillər simvolları doğurur. *"Simvol mədəniyyət hadisəsinin stereotipləşməsidir. Simvol poetik anlayışdır, yaradıcı işarədir, universal estetik kateqoriyadır"* [1, s.8]. Bu baxımdan Şəki toponimləri bütövlükdə mədəni obyektdir, yaşayış məntəqəsidir, həmin vahidlər konvensional mənaya malikdir. Toponimlərdən ibarət simvolların semantikası dil və mədəniyyətlə müəyyənləşir. Məsələn, *"Göyərçinli yeri"* oronimindəki kimi. Simvolun funksiyalarından biri, məsələn, quş, ox sözlərinin toponimə transformasiyası şəraitidir. Bu yolla Şəkidə *Quşkənd, Oxut* kəndləri adlandırılmışdır. Bu xüsusi adlar konkret simvolik məna ifadə edir. Həmin simvollar – konseptdir, doğma obrazdır, ona görə ki, hər bir yaşayış məntəqəsinin adında, ilk növbədə, simvolik obraz yada düşür. Leksik yolla yaranmış Şəki oykonimləri (*Şəki, Baqqal, Qoşun, Kam, Bideyiz, Vayvay, Kiş, İncə, Oxut* və s.) simvolik obrazlardır. Bu oykonimlər obrazlar şəklində motivləşmişdir. "Müxtəlif mədəniyyətlərdə milli-mədəni spesifikasını qoruyub saxlamışdır" [2, s.45].

Şəkinin toponim-simvolları geniş spektrli mənalara malikdir. Məsələn, Şəkidə *"Günəşli"* obyektinin adı gözəllik simvoludur. Belə simvolun əsasını obrazlılıq təşkil edir. Bu ərazinin toponimik vahidləri dil və mədəniyyət kontekstində də öyrənilə bilər. Toponimlərə bu yanaşma yenidir. Əvvəllər ərazi, bölgə toponimlərinin tərkibi, strukturu, yaranma yolları və s. ənənəvi metodlara əsaslanaraq öyrənilirdi. İndi isə vəziyyət dəyişib. Belə ki, həmin vahidlərin dilçilik elminin yeni sahələrinə müvafiq semiotik konseptologiya, linqvokulturoloji cəhətlərinin tədqiqinə cəhd edilir, mədəniyyət dəyərləri kimi araşdırılır. Çünki bu vahidlər tarixi və müasir mədəniyyəti yüzilliklər boyu qoruyan və daşıyan milli sərvətlərdir. V.A.Zveqintsevin fikrincə, dil və mədəniyyətin bir-biri ilə əlaqəsi probleminə toponimika elmi də nüfuz edə bilir. Burada dilin

həmin bölgədə yaşayan xalqın ümumi mədəni səviyyəsindən asılılığı və bu ərazidə məskunlaşmış dialekt daşıyıcılarının həmin dialektdə danışan xalqın mədəniyyətinin konkret formalarından asılılığı mütləq nəzərə alınmalıdır [3, s.248].

Şəki toponimlərinin dil və mədəniyyət kontekstində tədqiqi.

Toponimlər tarixi və milli-mədəni koddur. Onlar xalqın mədəniyyətinin qorunmasında və inkişafında mühüm rola malikdir. Bu kod, Şəki toponimlərinə aid materialları koqnitiv və funksional cəhətdən yanaşaraq öyrənilməsinə, onların konseptual strukturunu, koqnitiv mexanizmini müəyyənləşdirilməsinə imkan verir. Dünyanın toponimik mənzərəsində Azərbaycan, xüsusən də Şəki toponimlərinin də yerini görə bilək.

Tarix boyu müxtəlif ərazilərə xalq tərəfindən verilmiş adlarla həmin dil və dialektdə ünsiyyət saxlayan xalqın inkişaf tarixi arasında münasibət vardır. Dil və mədəniyyətin əlaqəsinə dialektlər mühitində formalaşan və inkişaf prosesində müəyyən dəyişikliklərə məruz qalan toponimlər də həssasdır. Yəni toponimik səviyyədə də dil mədəniyyətlə münasibətə girir. Sadə toponimik vahidlərin dilin sonrakı inkişafında sözdüzəldici şəkilçilər və digər komponentlər hesabına mürəkkəb xüsusi adların yaranması, əlbəttə, xalqın ümumi mədəni səviyyəsindən asılı olmuşdur. Mədəni səviyyə yüksəldikcə yeni formalı toponimlər də formalaşmışdır. Məsələn, Şəkidə *Tala Güneyi, Tala meşəsi, Tala qayası, Dəhnə arxı* və s. oronimlər həmin prosesin nəticəsi kimi ortaya çıxmışdır.

Qeyd etdiyimiz kimi, Şəki toponimləri əvvəllər müxtəlif istiqamət və aspektlərdə öyrənilmişdir. Amma tədqiqatımızda həmin toponimləri dil və mədəniyyətin qarşılıqlı əlaqəsi fonunda öyrənməyi qarşımıza məqsəd qoymuşuq. Hər şeydən əvvəl, Şəki toponimləri mövcud ərazidə vaxtilə yaşamış etnoslar haqqında tarixi-mədəni informasiyaları qoruyub saxlayır və gələcək nəsillərə ötürür. Həmin toponimlərin semantikası və funksionallaşmasında milli-mədəni komponentlər özünü göstərir. Həmin vahidlər də mental proseslərə qarşı həssasdır. Bunlar insanın nitq-dərketmə fəaliyyətini istiqamətləndirir. Toponimlər də insanı əhatə edir. İnsan həyatı ilə əlaqədardır. Toponimlər vasitəsilə ötürülən bilik və məlumatlar dünyagörüşdə qavranılaraq həm konseptuallaşır, həm də müəyyən müddətdən sonra kateqoriyaya çevrilir. Yeni mənaların – konseptual mənaların nitqdə ortaya çıxması və inkişafı ilə nəticələnir.

Hər bir xalqa məxsus tarix, mədəniyyət və dialekt elementləri onların toponimlərində də öz əksini tapır. Belə toponimlər antroposentrik paradiqma çərçivəsində də öyrənilməlidir. Toponimlər milli-mədəni xüsusiyyətlər kəsb edir. Bu cür toponimlərin formalaşma tarixi və şəraitinin də araşdırılması bizim qarşımızda duran ümdə vəzifələrdəndir. Toponimlər vasitəsilə o ərazidə vaxtilə yaşamış etnosların sosial durumu, mədəni səviyyəsi və s. haqqında mədəni-tarixi informasiya verilir. Toponimlər xüsusi adlar olduğundan onların verilməsi və mövcud adların dəyişdirilməsi təcrübələri cəmiyyətin tarixi-mədəni səviyyələri ilə də əlaqədardır.

Xüsusi adlar dil və mədəniyyətin qarşılıqlı təsir və əlaqələrini aşkar edə bilir. Bu baxımdan, Şəki bölgəsi toponimləri də özünəməxsus linqvokulturoloji məzmunu ilə fərqlənir.

"Linqvokulturologiya etnolinqvistika ilə bağlı olub, dil və etnos, dil və mədəniyyət problemlərini öyrənir" [4, s.135]. Nadir Məmmədli yazır ki, "toponimlər dil və mədəniyyət diskursunda sinxron qarşılıqlı əlaqənin vahid təsviri, dildə mədəniyyəti əks etdirən spesifik vahidlərin müəyyənləşdirilməsidir, şübhəsiz ki, o daim xüsusi maraq doğurur, çünki kommunikativ məkanın iki – dil və mədəniyyət səviyyəsində özünü göstərir" [5, s.7].

N.Məmmədli digər bir mənbədə toponimlərə linqvokulturologiya və mədəniyyətlərarası ünsiyyət çərçivəsində yanaşaraq, belə bir maraqlı fikir işlədir ki, "məhz bu çərçivədə toponimlər etnosun tarixi və mədəniyyəti ilə sıx əlaqədə qəbul olunur. Elmi paradiqmanın, dilçiliyin nəzəri məsələlərinin həlli, dil vahidləri vasitəsilə dünyanın görmə və dərk etməyin müəyyən bir yolunu əks etdirən toponimik mənzərə prizmasından öyrənilməsi, mədəniyyətlərarası, dillərarası əlaqələrin aktivləşdirilməsi və antroposentrik dilçiliyin inkişafı toponimik tədqiqatları genişləndirir" [6, s.6].

Bundan əlavə, coğrafi obyektlərin adları həmin ərazidə yaşayan xalqın mədəniyyətinin, etnosun tarixinin təcəssümüdür. *"Toponim ölkə haqqında biliklər xəzinəsidir, mədəni-tarixi informasiyanın qoruyucusudur"* [7, s.6].

Toponimik vahidlərin etnokulturoloji dəyərindən bəhs edən E.M.Pospelov yazır ki, "müəyyən ərazidə etnik şüurla toponimlər arasındakı əlaqə təkcə coğrafi adlar baxımından tarixi amil hesab edilmir, yalnız tarixi aspektdə milli şüurun formalaşmasına kömək edən etnik şüurun xarakterik xüsusiyyətlərini, etnosun müəyyən yaşayış şərtlərindən qaynaqlanan əsas amilləri elmi və təcrübi biliklərə əsaslanaraq müəyyən etmək mümkündür. Belə ki, milli varlığın spesifikliyi insanların mənəvi fəaliyyətinə, mədəniyyətinə, bütün anlayışların birləşdiyi dilə, uyğun adlara qədər təsir göstərir. Bu fikirlər, ilk növbədə, toponimlərə aiddir" [8, s.9].

Tədqiqatçıların nöqteyi-nəzərincə, toponim ümumbəşəri və milli dəyərləri özündə ehtiva edən işarə, verbal-mental obrazdır. Linqvokulturoloji amillərə mədəniyyət, adət-ənənələr, din, mifologiya, folklor, musiqi və s. aiddir. Şəki toponimlərində də həmin amillər öz əksini tapır.

N.Məmmədlinin fikrincə, toponimlər "insan – ərazi", "insan – ətraf mühit" əlaqəsini ehtiva edən sosial-iqtisadi, siyasi və milli-mədəni amillərin məkan ifadəsinin nəticəsidir… Toponimlər mədəniyyət və dilin qarşılıqlı əlaqəsində, sistemli metodlardan istifadə edilərək ekstralinqvistik məzmun vəhdətində, mədəni və tarixi inkişaf prosesində formalaşdıqları üçün istər qısamüddətli, istərsə də uzunmüddətli məlumatlar, erqonimlərdən fərqli olaraq, xalqın ictimai həyatı ilə paralellik təşkil edir [6, s.4-7].

Tədqiqatlar göstərir ki, Şəki toponimləri sosial düşüncənin məhsulu kimi ortaya çıxmışdır. Şəki toponimlərinin milli-mədəni tərəfi bu bölgədə aborigen tayfaların tarixi birliklərinin zənginliyi ilə fərqlənir. Mədəni məlumatlar bu adlar vasitəsilə daha çox ötürülür. Şəki toponimləri xalq mədəniyyətinin göstəricisidir. Xalqın adət-ənənəsi, təsərrüfat həyatı və s. ilə bağlı olan toponimlər bu qəbildən əhəmiyyətlidir. Şəkinin hər bir yaşayış məntəqəsinə, obyektinə, su hövzəsinə verilmiş nominasiyalar *(Şıxoba, Kəhrizoba, Həzər gölü, Kövsər çayı, Layski, Cunut, Zəyzit, Qoxmux, Kiş, Gəldən, Qoltzn və s.*) dövrün ictimai-siyasi, sosial, mədəni hadisələrinə bu və ya digər dərəcədə reaksiya verir. E.Murzayevin yazdığına görə, "toponimiya dilin unikal alt sistemidir. Xalqın mədəni mühitinin bir hissəsi, onun dünyagörüşüdür" [9, s.17].

Şəki toponimləri (*Əmirvan, Oravan, Baqqal, Qoruqlar, Abdallı, Şibili* və s.) o bölgədə yaşayan əhalinin sosial vəziyyətini, adət-ənənələrini, məşğuliyyət sahələrini və s. əks etdirir.

Şəki toponimlərinin semiotik və etnomədəni xüsusiyyətləri.

Deyildiyi kimi, Şəki toponimləri bir semiotik vahid kimi kommunikasiyada aktuallaşır, mətndə verballaşır, yeni mənalarla görünməyə başlayır. Həmin toponimlər bölgədə fərqləndirmə iş və fəaliyyətinə xidmət edir (Baltalı, Aşağı Göynük, Yuxarı Göynük, Nuxa – Şəki və s.) dil və dialekt vahidləri arasındakı fərqi ifadə edir. Dilin ifadə planı semiotik relevantlarla, işarələr sisteminin mükəmməlliyi ilə mümkün olur. Mövcud təhlil olunan toponimik vahidlə verilən informasiya qavranılır. İstər-istəməz mədəniyyətlərarası dialoqlarda həmin məna təzahür olunur. "Dil insanın təbiətində yaranır və mövcuddur. Dilin prototipi insan düşüncədə olmasaydı, insanın nitqi ola bilməzdi. İnsan dilin sayəsində insandır" [10, s.40-47].

Şəki toponimlərində milli kolorit (xalqın həyat tərzi, məişəti, arzu və istəkləri, inam və düşüncələri və s.) işarələr vasitəsilə mənalandırılır və ifadə olunur. Məna toponimik hadisə və proseslərə əsasən götürülür. Burada semiotika və informasiya bir-birinə yaxınlaşır. Toponimlər də dünyanı modelləşdirə bilir, onomastik proses və hadisələri işarələndirən atomar amillərin toplusudur. Şəki toponimlərini orada yaşayan, yaxud yaşamayan insanlar dərk edəndən sonra mənimsəyirlər. Mənimsənilən toponimlər forma-məna-funksiya üçlüyünə əsaslanır. İşarə və məna da burada başlıca ideya istiqamətini üzə çıxarır. Şəki toponimləri bir dil işarəsi kimi funksional-koqnitiv və konseptuallaşma istiqamətində nitqin inkişafında mühüm rol daşıyır.

Şəki toponimləri üzərində müşahidələr də göstərir ki, buradakı etnotoponimlər, sözün həqiqi mənasında, etnomədəni və inteqrativ əhəmiyyətə malikdir. Bu əraziyə gələn və məskunlaşan tayfaların, əhalinin tarixi, sosial, dil və etnokulturoloji cəhətlərini özündə birləşdirir. Həmin ərazidəki toponimlərin semantikasında milli-mədəni komponentlər zəngindir, bu zənginlik tarixi birliyi qoruyub saxlayır. Nümunələrə nəzər salaq:

Qara Süleyman çayı. Bu, mürəkkəb quruluşda olan Şəki hidronimidir. Burada üç işarə vardır. Qara – ləqəbdir, bir işarə kimi Süleyman adının təyinedicisidir, ayamasıdır, Süleyman işarə kimi şəxsin adıdır, çay isə bir işarə olaraq hidronimik appelyativdir. Çay adı şəxsin bütöv adı ilə

öz ifadəsini tapmışdır. *Zəhra bulağı* hidronimində də semiotik məkan qadın adı ilə bağlıdır. Amma burada ləqəb işarəsi yoxdur.

Şəkinin toponimik formantları məkanı *qaya, kənd, oba, qışlaq, çay* komponentlərinin köməyi ilə mürəkkəb strukturda təqdim edir: *Taxtaqaya, Talaçay, Quşkənd, Çalaqaya* və s. Həmin strukturlar bizi əhatə edən reallığın cəmiyyət tərəfindən dərk olunmasında başlıca rol oynayır. Dünyagörüşü əks etdirən bu toponimlərə antroposentrik yanaşmaqla milli özünəməxsusluq və tarixi şərtlənmiş mədəni universali kimi qəbul olunur.

Keçal yaylağı oronimində isə işarələnmə sistemi sahib olma münasibətinin mövcudluğu ilə bağlıdır. Yəni yaylaq Keçələ məxsusdur. *Keçəl qobusu* oronimində də eyni işarə sistemi vardır. Qobu keçələ məxsusdur. Daha doğrusu, qobunun yiyəsi, sahibi keçəldir.

Digər bir münasibət Şəkinin müxtəlif məkanları ilə bağlıdır. Məsələn, *Ot dağı, Ot qoruğu, Qoşaqovanq talası, Qızılağaç həndi* və s.

Hələ Qəza dövründə Şəkinin etnonimik toponimlərində etnik tərkibin müxtəlifliyi müşahidə olunmuşdur. Burada azərbaycanlılarla yanaşı, avar, ləzgi, saxur, udin, yengiloylar da yaşayırlar. Bu azsaylı dillərin toponimlərə təsiri, şübhəsiz ki, danılmazdır. Bir sıra türk mənşəli etnotoponimlər, məsələn, *Abdallı* tayfa adının yaşayış məntəqəsinə verilməsinin səbəbi *Qoruqlar* kəndindən köçüb gələnlər olmuşdur. E.Nuriyev yazır ki, Abdallı kəndi keçən əsrə aid məlumatlara görə keçmişdə Şəki qəzasında olmuş Qoruqlar kəndindən köçüb gələnlər tərəfindən salınmışdır. Qoruqlar kəndində üç kiçik məntəqə yaranmışdır: *Şibili, Yemişanlı və Abdallı* [11, s.36].

Abdal konsepti. Toponimik konsept deyərkən obyekt seçilmiş Şəkinin Abdal coğrafi adı haqqında müəyyən mədəni təsəvvürlər dərk edilir. Bu mədəni təsəvvürlər semiotik konseptologiyada öyrənilir. Abdal etnos adının semiotikası ümumi xarakterli anlayışları ehtiva edir.

İlhami Cəfərsoylu Abdalın bir çox Dağıstan xalqlarının – avarların, kumukların əski inancında ov tanrısı olduğunu göstərir. Qeyd olunan xalqlar inanırdılar ki, Abdal buludların üstündə oturub sehirli tütəyini çala-çala ov heyvanlarını otarır, onları qoruyur. Kim ov qaydalarını pozarsa, ov mövsümü gəlməmiş ova çıxarsa, onları cəzalandırır, atdıqları oxları göydə tutub əyir. Ona görə də bu xalqlar ov edəndə ovladıqları heyvanın bağrını Abdala pay verərdilər [12, s.22]. A.Bakıxanovun tədqiqatlarında Abdal/Abdallı tayfasının Nadir şahın Dağıstan səfərində qəhrəmanlıqlar göstərdiyi deyilir. Ona görə də Nadir şah Hindistan səfərindən qayıdandan sonra onları xidmətdən azad edir, Şirvana göndərir [13, s.145]. Abdallar Azərbaycanın digər ərazilərinə də yayılırlar. 1923-cü ilə qədər Laçın şəhəri Abdallat adlanırdı [14, s.122].

İ.Cəfərsoylu Abdal sözünün mənasının min ildə üç dəfə dəyişdiyini göstərir. Əvvəllər ov tanrısının, sonra tayfanın və daha sonra dərviş təriqətinin adı olduğunu müəyyənləşdirmişdir. Ş.İ.Xətainin də bir bayatısında dərviş təriqəti kimi Abdalın adı çəkilir ki, bu da "poetik işarə"dir. Burada poetik diskurs poetik işarəyə çevrilir:

Xətaiyəm, bir haləm,
Əlif üstündə daləm.
Sufiyəm təriqətdə,
Həqiqətdə abdaləm.

Marağalı Əvhədinin (XIV əsr) şeirlərində abdal konsepti xeyirxah insan, müdrik alim və kəramət sahibi semantikasında istifadə olunmuşdur [15, s.274].

1535-ci il hadisələrindən sonra Abdal konsepti konseptual mənasını dəyişərək, mənfi çalarda işlənilmiş, hörmətsiz adam, gəzərgi dərviş mənasını kəsb etmişdir [16, 46].

Abdal etnonimi ilə bağlı Şimali Qafqazda, Gürcüstanda və Azərbaycanda digər yaşayış məntəqələri də olmuşdur [17, s.3]. Bu müxtəlif mənalar etnomədəni əhəmiyyət daşıyır, mədəni informasiyalar ötürülür, məna dəyişmələrində linqvistik, xüsusən də etnolinqvistik amillərin rolu müəyyənləşir.

Beləliklə, Şəki toponimlərinin etnolinqvistik cəhətdən inkişafında mədəni faktor anlayışını da müəyyənləşdirmək mümkündür. Tədqiqat göstərir ki, toponimik leksika mədəniyyətin periferik cəhətlərinə aiddir. Ə.Rəcəblinin təbiri ilə desək, mədəniyyətin hər hansı hadisəsinə aid olan toponimik lüğətin həcmi onun mədəni əhəmiyyəti ilə düz mütənasibdir" [18, s. 505].

Nəticə: Aparılan təhlillər sübut edir ki, Şəki etnotoponimləri bir dil-nitq işarəsi olaraq konseptual sahədə sosio-mədəni vahid kimi funksionallaşma prosesinə qoşulur, assosiativ sahə yaradır. Həmin sahədə konseptual məna reallaşır. Tədqiq etdiyimiz Şəki toponimləri dil və mədəniyyətin vəhdətdə olan və funksionallaşan tərəfidir. Burada linqvokulturoloji cəhət işarə və mənaların birliyidir. Bu onomastik adlarla etnik mentallıq, dünyanın dil mənzərəsi gerçəkləşir. Toponimik obraz dil və mədəniyyətdə canlanır. Şəkinin toponimləri vasitəsilə insan mədəni informasiya alır. Məsələn, *Göynük* kənd adı Türkiyənin Bolu ətrafı ərazilərində də var. Bu toponimlərin yaranma ortaqlığı və buradan əldə olunan bilik-məlumatlar özü elə mədəni-elmi informasiyadır.

Xalqın mədəniyyəti tarixində baş verən hadisələr Şəki toponimlərində də əks olunub. Dil və mədəniyyət hadisələri Şəki toponimlərinin yaranmasında birgə iştirak etmişdir. Məsələn, Şəki oronimlərindən biri *Qoşun dağı* adlanır.

Beləliklə, milli-mədəni səviyyə, konseptual məna Şəki toponimlərində mühafizə edilib saxlanılır. Verilən tarixi informasiyalar toponimlərin semantikası ilə ifadə olunur. Bu mənalar konseptuallaşır və kateqoriyallaşır.

Ədəbiyyat siyahısı

1. Маслова В.А. Лингвокультурология. Москва: Издательский центр “Академия”, 2001, 208 с.
2. Юнг К.Г. Архетип и символ. Москва: Ренессанс, 1991, 213 с.
3. Звегинцев В.А. Очерки по общему языкознанию. Москва: Изд-во МГУ, 1962
4. İsmayılova A. Azərbaycan və ingilis dillərində mürəkkəb leksik vahidlərin linqvokulturoloji xüsusiyyətləri. Dilçilik araşdırmaları. Yanvar-iyun / 2021, № 1, s.135-140
5. Məmmədli N.B. Torpağın dili – toponimlər. “Qərbi Azərbaycan toponimləri” mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: Elm və təhsil, 2023, 189 s.
6. Məmmədli N. B. Ön söz. Qərbi Azərbaycan toponimləri lüğəti. I cild, Bakı: Elm və təhsil, 2024, 300 s.
7. Həbibli R. Toponimlər linqvokulturoloji fenomenlər kimi. Bakı Universitetinin Xəbərləri. № 1, 2022
8. Поспелов, Е.М. Топонимика и география. Вопросы географии, св. Мысль, № 110, М., 2019
9. Мурзаев Э.М. Очерки топониомики. Москва: “Мысль”, 2000
10. Гумболтьдт, В. Язык и философия культуры. Москва: “Прогресс”, 1985
11. Nuruyev E. Azərbaycan SSR Şəki-Zaqatala zonasının toponimiyası. Bakı: Elm, 1989, 112 s.
12. Мифы народов мира. В 2-х томах, т. V, Москва: Энциклопедия. 1980, 672 с.
13. Bakıxanov A. Gülüstani-İrəm. Bakı: Elm, 1991, 200 s.
14. Abışov, E.Ş. El-oba adlarının izi ilə. Bakı: Nafta-Press, 2007, 136 s.
15. Marağalı Ə. Cami-Cəm. Bakı: Lider, 2004, 288 s.
16. Cəfərsoylu İ. Türk dillərində teonim və etnonimlər. Bakı: 2010, 365 s.
17. Пагирев Д.Д. Алфавитный указатель к пятиверстной карте Кавказского края. Тифлис, 1913
18. Rəcəbli Ə. Nəzəri dilçilik. Bakı: Nurlan, 2003, 515 s.

Джала Ильясова

Семиотические и лингвокультурологические характеристики топонимов Шеки

Аннотация

Топонимические единицы-это лексические элементы, отражающие географические условия, язык населения и историческое прошлое региона, к которому они относятся.

Возникновение шекинских этнотопонимов, происходившее в определенные периоды и на разных этапах социального развития и трансформации, представляет собой сложный исторический процесс. Поскольку эти названия формировались параллельно с историческими событиями, в топонимике Шеки в той или иной мере нашли отражение миграция, смешение и ассимиляция различных этнических групп и народов.

В данной статье рассматриваются топонимы Шеки (такие как Падар, Джалаир, Мугал, Буджаг, Гарагоюнлу, Дашлы Байир, Ширинбулаг, Чайгыраг и др.) в лингвистическом и национально-культурном аспектах. Анализ проводится с позиций семиотики, а также с учетом взаимосвязи языка и культуры. Эти географические названия сохраняют и отражают нашу политическую и онтогенетическую историю, этнографию, историю языка, художественно-поэтическое мышление, а также этико-эстетические представления.

Ключевые слова: *Шекинский регион, этнотопонимы, семиотический фактор, символ, лингвокультурологические факторы.*

Jala Ilyasova

Semiotic and linguocultural characteristics of Sheki toponyms

Abstract

Toponymic units are lexical items that reflect the geographical conditions, language of the population, and historical past of the region to which they belong.

The emergence of Sheki ethnotoponyms-which arose during specific periods and stages of social development and change-encompasses a complex historical process. As these names evolved in tandem with historical circumstances, the migration, intermingling, and assimilation of various ethnic groups and nations are reflected, to a certain extent, in Sheki's toponymy.

This article examines Sheki toponyms (such as Padar, Jalayir, Mughal, Bujag, Garaqoyunlu, Dashli Bayir, Shirinbulaq, Chayqiraq, etc.) by comparing them across linguistic and national-cultural dimensions. The toponyms in question are analyzed within the contexts of semiotics, as well as the relationship between language and culture. These place names preserve and reflect our political and ontogenetic history, ethnography, linguistic history, artistic-poetic thought, and ethical-aesthetic perspectives.

Keywords: *Sheki region, ethnotoponyms, semiotic factor, symbol, linguocultural factors.*

Çapa tövsiyə edən: ***Azərbaycan Dillər Universiteti***

Rəyçilər: ***dosent Ş.Mahmudova***
dosent A.Muradova